**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 21 noyabr (Cümə axşamı günü) tarixli 46-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 14 səfərülmüzəffər sənə 1337. 21 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Maliyyə Nəzarətindən**

**1.** Maliyyə Nəzarəti hal-hazırda yeni kağız pulu buraxma fikrində olaraq lazım olan əşyanı: kağızları, rəngləri və ilx. hazır etməkdədir. Lakin bu əşyanı tez zamanda hazır etmək mümkün olmamağı nəzərə alıb, Hökumət böylə qərar vermiş ki, Bakı Bələdiyyə İdarəsi son zaman buraxdığı bonolardan rəngin və kağızın dəyişdirib, çap etdirsin. Binaileyh [ona görə], bu az zamanda çap olacaq kağız pullar (10, 25, 50 rublə fiyatı) daha gözəl çap olunmaqdan dolayı rəngi dəxi açıq olacaq və surətləri hökumət banklarına və xəzinələrinə öz vaxtında göndəriləcəkdir.

*Maliyyə naziri:*
*Məhəmməd Həsən Hacınski*

**2.** Son zamanlar bəzi idarələr və şəxslər köhnəlmiş və dağılmış Bakı bonolarını qəbul etmədiklərini nəzərə alıb, Maliyyə Nəzarəti ümuma elan edir ki, bir tərəfdən qanunumuz və qeyri tərəfdən Bakı Bələdiyyə İdarəsi 1918 sənədə yanvar ayının 9-unda təsdiqlədiyi qərar mövcibincə [qərara əsasən] ancaq o Bakı bonoları qəbul edilməz, hansıları ki, dörddə bir hissələrini qeyb və yainki imzaları və nömrələri silinmiş olsun. İşbunu Maliyyə Nəzarəti elan edərək əlavə edir ki, imzaları və nömrələri bəlli və parçaları üstündə olan Bakı bonolarını qəbul etməyən idarələr və əşxas qanunun müqabilində [qarşısında] məsul olacaqlardır.

*Maliyyə naziri:*
*Məhəmməd Həsən Hacınski*

**Maliyyə Nəzarətində**
15 təşrini-sani
Hökumətin 15 təşrini-sani tarixli qərardadı mövcibincə, mən xəstə olduğumdan dolayı, Maliyyə Nəzarəti ümurunu [işlərini] Dövlət Kontrolu Əbdüləli bəy Əmircanova müvəqqətən tərk edirəm.

*Maliyyə naziri:*
*Məhəmməd Həsən bəy Hacınski*

17 təşrini-sani [noyabr]
Xəstəlikdən səhhətyab olduğuma [sağaldığıma] görə mən bu gündən yenə Maliyyə Nəzarəti ümurunu [işlərini] kəndi əlimə aldım.

*Maliyyə naziri:*
*Məhəmməd Həsən bəy Hacınski*

**Əmr nömrə 13**
Nuxu xəzinəsinə mühasibaçi vəzifəsilə müvəqqətən buraxılmış olan Səməd bəy Hacı Ağabəy oğlu Şahqulubəyov ağustos ayının birindən, Zaqatala xəzinəsinə həmin vəzifə ilə buraxılmış olan Pyotr Yakimoviç eylülün [sentyabrın] 12-sindən həmin vəzifəyə təyin edilirlər.

**Əmr nömrə14**
Vasili Butsenko ilə Mixail Atamaşkin Ağdam xəzinəsinə gələn gündən dəftərxana qulluqçuları vəzifəsini müvəqqətən ifaya buraxılırlar.

*Maliyyə Nəzarəti Şurasının üzvü: Aqurov*

**Əmr nömrə 15**
14 təşrini-sani 1334
Maliyyə Nəzarətinin dəftərxana qulluqçularından Həsənağa Yusifxanov ilə Aleksandr Lixarev qulluğa gəlmədiklərinə görə, bu sənəsi təşrini-saninin 14-ündən qulluqdan kənar edilirlər.
Bu sənəsi təşrini-saninin 14-ündən Xəlil bəy Sultanov ilə Fyodor Livanov Maliyyə Nəzarəti dəftərxanasında dəftərxana qulluqçusu təyin edilirlər.
Bu sənəsi təşrini-saninin 14-ündən Yekaterina Sokolovskaya Maliyyə Nəzarəti dəftərxanasında Təsərrüfat (Xozyaystvenni) şöbəsinə müdirə təyin edilir.

**Azərbaycan Cümhuriyyətinin Ümuri-Xeyriyyə Nəzarətindən [Sosial Təminat Nazirliyindən]**
Nömrə 1, 15 təşrini-sani 334
Təşrini-saninin 1-indən Ümuri-Xeyriyyə Nəzarətinin baş mürəxxəsliyi [nümayəndəliyi] və ona aid bütün şöbələri təsviyə [ləğv] edilir.
Nömrə 2, 15 təşrini-sani
Şəhərlər İttifaqının sabiq Bakı komitəsinin sədri Fyodor Yefimoviç Kotilevski Ümuri-Xeyriyyə Nəzarətinin dəftərxana müdiri təyin edilir.
Nömrə 3, 15 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qaçqınlar şöbəsindəki sabiq müfəttişi Əlsgər Axundov işbu Nəzarətin Şamaxı nahiyəsində 1 təşrini-sani 334-dən nahiyə naziri [müfəttişi] təyin edilir.
Nömrə 4, 16 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qazax qəzasında olan sabiq mürəxxəs [nümayəndə] Q. Borsuklinski Şamaxı nahiyəsində 1 təşrini-sanidən nahiyə naziri [müfəttişi] müavini təyin edilir.
Nömrə 5, 16 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qaçqınlar şöbəsində sabiq mühasib müavini olan Yusif Xəlfəzadə Nəzarətin hesabdar vəzifəsini 1 təşrini-sanidən ifa etməyə təyin edilir.
Nömrə 9, 17 təşrini-sani
İsmayıl Haqqı Veysov Ümuri-Xeyriyyə Nəzarətinin dəftərxanasında 14 təşrini-sanidən dəftərdar təyin edilir.
Nömrə 11, 17 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qaçqınlar şöbəsində mühasibaçi İsfəndiyar Hacıyev verdiyi istidaya rəğmən [ərizə əsasında] vəzifəsindən azad edilib, Dövlət Kontrol Nəzarətinə keçirilir.
Nömrə 13, 18 təşrini-sani
Həsən Fəttahov Dövlət Xeyriyyə işlərinin Gəncə nahiyəsində [Gəncə nahiyəsi Sosial təminat idarəsində] 1 təşrini-sanidən nahiyə müfəttişi təyin edilir.

*Ümuri-Xeyriyyə naziri: Rəfiyev*

## TELEQRAF XƏBƏRLƏRİ
## (Royter ajansı məlumatı)

* Bakıdakı ingilis komandanlığının aldığı məlumata nəzərən, Almaniyada olan əsgəri əsirlərə ənqərib [yaxın] bir zamanda vətənlərinə övdət etməyə [qayıtmağa] imkan veriləcəkdir.

* Belçika Parlamanı, ehtimal ki, 21 təşrini-sanidə Brüksel şəhərində dəvət ediləcəkdir.

* Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Hollandiyada əhval bir az yaxşılaşmışdır. Amsterdam şəhərində iğtişaş vaqe olmuşdur, fəqət şimdi vəziyyət müstəhkəmdir [sabitdir]. Əhali kraliçanı təbrik etmişdir.

* Berlindəki Nümayəndələr Şurası təhtəlbəhr əmələlərinə [sualtı qayıqların heyətlərinə] müraciətlə, İngiltərəyə gedəcək sualtı qayıqlardan kənar olmamağını [sualtı qayıqları tərk etməməklərini] təmənna etmişdir. Bununla bərabər, ingilis sularında toplaşan gəmilərin əmələsinin bir fəlakətə uğramayacağını təmin və onlara yaxşı mükafat veracəyini vəd etmişdir.

* Fransa məmləkəti düşməndən təmizlənmişdir.

* Fransız və Amerika ordusu Mets təbyalarının [istehkamlarının] birinci xətlərinə yetişmişlər və bazar ertəsi Metsin işğalı gözətlənir.

* İngilis və fransız hökumətləri Parislə London miyanında [arasında] gündəlik hava müxabiratı [rabitəsi] düzəltmişlərdir. Bu xidməti Almaniyanı havadan bombardman etmək üçün işlədilmiş tünd gedici [sürətli] aparatlar ifa edəcəklərdir.

**Mərkəzi Şura Hökumətinin məlumatı xəbərləri**
(Gürcü Teleqraf Ajansı vasitəsilə alınmışdır)
- Slavnoye istasyonu, 14 təşrini-sani
Slavnoye dairəsində alman qoşunları inqilaba dair nəşr edilmiş kitabları böyük iştiyaqla [həvəslə] alırlar.
Alman qoşunları həcz [müsadirə] edilmiş ələfiyyatla [yemlərlə] heyvanatı əhaliyə buraxıb, bitərəf xüttədən [ərazidən] də 30 çağrım Borisovka köyü tərəfinə çəkilmişlər.
- Moqilyov, 14 təşrini-sani
Alman əsgərləri Daşkovkanı buraxıb getdilər. Yarın Bıxov ilə Roqaçyovu təxliyə edib, Berlinə əzimət edirlər [gedirlər]. Gedənlərdən çoxu silah və təchizatını buraxırlar.
- Kiyev, 14 təşrini-sani
Ukraynada olan alman qoşunları arasında bir çox şuralar təşkil edilmişdir. Odessada bir qitə şurası, bir übur edən [keçən, keçib gedən] əsgər şurası vardır. Şuralar rəyasətləri fəqət [sadəcə, təkcə] əsgərlərdən ibarətdir. Yekaterinoslav şəhərində, Xarkovda və Poltavada əsgəri qitələr [hərbi hissələr] şuralarına seçkilər davam edir. Şuralı [Sovet] Rusiyanın bütün hüdudunda hər yerdə seçkilər başlanmışdır. Alman qoşunları olan mənzillərin həpsinin üzərində al bayraqlar təməvvüc edir [dalğalanır].
- Kiyev, 14 təşrini-sani
Soqaqlarda toplanmaq, örtülü mənzillərdə ictimalar [yığıncaqlar] və hər növ nümayişkaranə hərəkətlər icbari qərardad mövcibincə [qərardada əsasən] yasaq elan edilmişdir. Buna riayət edilmədiyi təqdirdə silah qullanmaqla qərardad əhalini təhdid edir.
- Təşrini-saninin 15-ində Moskvadan xəbər verirlər ki, Odessadan verilən xəbərlərə görə Odessa ilə Sevastopol arasında ingilis sualtı qayıqları zahir olub, alman bayrağı olan gəmiləri partlatdıqdan sonra gəmi komandasını kənara çıxarırlar.
- Təşrini-saninin 13-ündə vaqe olan Finlandiya iclasında prins Fridrix Karlın Finlandiya tac-taxtının ona təklif edilməsi cavabı elan edilmişdir. Prins ona göstərilən etibar və etimaddan xeyli razı qalmışdır. Prins Finlandiya camaatı üçün işləməyə hazır olduğunu etirafla, indiki halda onun Finlandiya karolu [kralı] intixab edilməsinin [seçilməsinin] məmləkət istiqlaliyyətinə böyük bir mümaniət [maneə] olacağını söyləmişdir. İndiyə qədər Finlandiya istiqlaliyyətini etiraf [qəbul] etməyən hökumətlərlə gözəl münasibət saxlamalıdır. Şərait dəyişildiyi zaman prins Karl taxt-tacını qəbul etməklə, Finlandiya camaatı uğrunda işləməyə hazır olduğunu xəbər vermişdir. Hal-hazırda ancaq istiqlaliyyət təmin edilməsi lazımdır.
- Rostov (Don üstü) [Rostov-na-Donu]
12 təşrini-sani. İnqilabın bir sənəliyi bayramı ərəfəsi günü şəhərin fəhlə dairələri zabit qaraqol qitələri ilə işğal edilmişdi. Qara Ataman alayı 30 gün ərzində fəhlə evlərini və zavodları gəzirdi. Şəhərdə zirehli avtomobillər gərdiş edirdi. Şəhərin küçələrində elan və intibahnamələr [təbliğat vərəqələri] yapışdırıldığına binaən [görə], fəhlə dairəsinin bir çox yerlərində təftiş və tövqiflər [həbslər] davam edirdi.
Don Hökuməti Almaniyadakı inqilab haqqında [və] Vilhelmin xəl'i [hakimiyyətdən kənarlaşdırılması] xüsusunda məlumat nəşrini qadağan etmişdir.
Alman komandanlığı inqilab xüsusundakı xəbərləri təkzib etmək üçün xüsusi elanlar nəşr edir. Lakin Almaniya [və] Avstriyadan övdət edən [qayıdan] əsgəri əsirlərin hekayələrindən, inqilab haqqında əhali çox şeylər öyrənmişdir. Alman qoşunları onları vətənə buraxmamağa qarşı izhari-nifrət edirlər [narazılıqlarını bildirirlər]. Krasnovun əlbisə həczi [müsadirəsi] haqqında verdiyi əmrə münasib, köylülər tələb edirlər ki, burjuaziyanın evlərini təftiş etsinlər. Cəza dəstələri amansız bir surətdə həczə girişmişlər.
- Təşrini-saninin 13-ündə Berlindən xəbər verirlər ki, Camaat Vəkilləri Şurası [Xalq Deputatları Soveti] hökumət işlərini bu qərar üzrə təqsim etmişdir [bölmüşdür]: Ebert – daxilə və hərbiyyə işlərinə; Haaze – xariciyyə və müstəmləkat [müstəmləkələr] işlərinə; Şeydeman – maliyyə; Dittman – tərxisi-əsgər [ordunun tərxis edilməsi], səhhəti-ümumiyyəyə [xalq səhiyyəsi] və ədliyyə işlərinə; Landsberq – mətbuat və məlumat işlərinə təyin edilmişlərdir.
Almaniya təzə hökumətinin məramnaməsi: İdareyi-əsgəriyyənin [hərbi idarənin] götürülməsi, ittifaqlar və şuralar azadlığı, sansürün [senzuranın] ləğvi, hürriyyəti-ədyan [din azadlığı] və siyasi müttəhimlərin əfvi-ümumisindən ibarətdir.

## ALMANİYA İNQİLABI

Berlin – Bitərəf Sosial-Demokrat Firqəsi alman fəhlələrinə xitabən bir müraciətnamə nəşr etmişdir. Bu müraciətnamədə yazılmış ki:

*"Militarizm üsuluna öylə zərbə endirilmişdir ki, bir daha kəndisini toplayammayacaqdır. Bizdə olan imperializm bərbad edildi. Demokratiya və sosializm qayəsi qalibanə bir surətdə ilərləməkdədir. Bitərəf Sosial-Demokratiya Firqəsi əzəldə bu imperializm fəlakətini görürdü. Fəqət [yalnız, təkcə] bizim firqə Bükreş [Buxarest] və Brest müahidənamələrinin [müqavilələrinin] qarşısına dururdu. İşbu müahidənamələri başqa firqələr də artıq müdafiəyə qalxışmayırlar. Beynəlmiləl sosializm məsləkinə daima iman edən biz bitərəflər hər bir zaman, hər bir millətin əzilməsiylə və ona qarşı göstərilən zülmlərlə mübarizə etməkdə idik. Bu vəsilələr [səbəblər] alman milliyyətini təzyiq altına almaq istəyən hər bir təşəbbüsata qarşı durmağa bizə əxlaqi bir haqq verir.*

*Sosial-Demokratiya Firqəsi burjuaziya cəmiyyətinə müavinət [yardım] etmək üçün hökumət başına dəvət edilmişdir. İmperializm bərbad olduqdan sonra bu firqə millət müdafiəsini əlinə alıb burjuaziya üsulunu müdafiə etmək istədi. Hökumətə daxil olduqda, onun tərəfindən nə siyasi müqəssirlərin əfvi, nə idareyi-əsgəriyyənin [hərbi idarənin] götürülməsi, nə də sosializmə və siyasətə mütabiq [uyğun] tələblər meydana gəlmədi. Hətta əski burjua hökuməti tez bir zamanda sabiq Rusiyanın topraqlarından Baltik civarını, Finlandiya, Lehistanı [Polşanı], Ukraynanı, habelə Rumıniya ilə Bolqariyanı təxliyə etməli idi. Sülh müahidənamələrini demokratik prinsiplərinə müvafiq olmaq üçün yenidən nəzərdən keçirmək, əsgəri və mülki idarələrinə mənsub olan siyasi müqəssirləri əfv etmək, idareyi-əsgəriyyənin qaldırılması, hürriyyəti-ictima və ittifaq [toplaşma və təşkilatlanma azadlığı], hürriyyəti-kəlam [söz azadlığı], nisbi seçki üsulu, bu üsulun qadınlara da haqqi-intixab [seçmə haqqı] verməsi, məsai mükəlləfiyyəti [əmək öhdəliyi] qanununun təsviyəsi [ləğvi], səkkiz saatlıq iş günü elanı kimi əsasları qəbul etməklə bərabər, qanuni-əsasinin [konstitusiyanın] təğyiratına [dəyişdirilməsinə] girişməliydi ki, həqiqi bir hökumət meydana gətirəydi. Biz beynəlmiləl sosialist olmaq həsəbi [səbəbi] ilə daha çox tələblər təklif ediriz. Bizlər ictimai bir cümhuriyyət istəyiriz ki, bu növlə müharibələrin təxribatından cahan xilas edilsin. Dərin və geniş təbəddülat [dəyişiklik] hamı dövlətlərdə icra olunmaqdadır. Böylə təğyirat və təbəddülat [yenilik və dəyişiklik] zamanı idarəçilik rolunu öhdəsinə götürmək beynəlmiləl "proletari"nin (füqərayi-kasibəsinin) tarixi bir vəzifəsidir. Hökumət sosializmasının üsulları fəhlə sinfinin zəif işləməsinə və burjuaziya cəmiyyətinin qüvvətlənməsinə fayda verəcəkdir.*

*Füqərayi-kasibənin [proletariatın] ittihadı [birləşməsi] mərkəz, Xalq Tərəqqipərvəran Firqəsi, milli hürfikirlərlə hökumət sosialistlərinin bayraqları altında başa gəlməz. Alman füqərayi-kasibəsi Bitərəf Sosial-Demokrat və beynəlmiləl sosializm bayrağı altında olmaq onun üçün bir şüar olmalıdır. Fəqət [ancaq] bununla füqərayi-kasibə və bəşəriyyət üçün parlaq bir istiqbal [gələcək] olacaqdır. Fəqət bununla sülh təmin olar."*

Bu müraciətnamə, ətrafına: *"Toplaşınız! Sıralarınızı doldurunuz! Bəşəriyyətin ən uca bir xilasına nail olmaq lazımdır!"* sözləri ilə xitampəzir olur [başa çatır].

## ALMANİYADA

- Sabiq Almaniya imperatorluğu, Alman Hökumətləri İttifaqına mübəddəl olmuşdur [çevrilmişdir]. Avstriyanın almanlarla məskun hissəsi də məzkur [adı çəkilən] ittifaqa mülhəq olmuşdur [birləşdirilmişdir].

- Almaniya Hökuməti Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvət edilməsini elan etmişdir. Məclisi-Müəssisan mümkün olduqca ümumi konqre dəvətinə qədər tez bir müddət ərzində dəvət ediləcəkdir.

- Alınan xəbərlərə görə, Almaniyada inqilab hərəkəti asayiş surətini alıb, sakitliklə cərəyan etməkdədir. Berlin Fəhlə və Saldat Şurasına Berlində Qırmızı qvardiya təşkil edilməsi təklifi daxil edilmişdir. Hökumət ixtiyarında kifayət qədəri əsgəri qüvvə olduğundan, Fəhlə və Saldat Şurası ilə Hökumət bu təklifi rədd etmişlərdir.

## QƏZETƏLƏRDƏN

- Çexslav sosialistləri çexslavların Rusiya Vətəndaş müharibəsində iştirak etmələri münasibətilə rus sosialistlərinə müraciətən xəbər vermişdir ki, əks-inqilab məqsədi üçün onların ordusundan istifadə etmək olmaz. Çexslavlar özlərini Rusiya Qoşma [Federativ] Demokrat Cümhuriyyəti tərəfdarı elan edirlər.
- Qəzetələrin verdikləri xəbərə görə, Yaponiyanın təzə Xariciyyə naziri izhar etmişdir ki, Yaponiya Hökuməti sülh əqd edildikdən [bağlandıqdan] sonra Müttəfiq hökumətlərlə bərabər Rusiyada qanun və asayişi bərpa etməyə iştirak edəcəkdir.
- "Mançester" qəzetəsi bolşeviklərə mübarizə başlanacağı haqqında bir məqalə yazıb, Mərkəzi hökumətlərlə mütarikə [atəşkəs] əqdindən [imzalanmasından] sonra Müttəfiq dövlətlərin bolşeviklərlə mübarizə planlarının nədən ibarət olduğunu sual etmişdir.
- Çexslavların azad edilməsi üçün Amerikanın çıxış yapması çoxdan vücuda gəlmişdir. Buna görə də şərq cəbhəsində Almaniya əleyhinə döndürülmüş olan cəbhə əsassız olar. Hərgah bundan belə ingilis millətinə Rusiyada öz qanını tökmək lazım gəlsə, o zaman ingilis milləti bunun səbəbini bilməlidir.

**Zaqafqaziya bonları**
Dağıstanlılar Cümhuri İttifaqının [Birləşmiş Dağlılar İttifaqının] Maliyyə naziri Gürcüstan Xariciyyə nazirinə müraciət etdiyi bəyannaməsində özünün Gürcüstan hökumət nümayəndələri [ilə] müzakirədə bulunduğuna və bu məsələ haqqında Azərbaycan Hökumətinin razılığına istinadən xəbər verir ki, Dağıstan Cümhuriyyəti Gürcüstan və Azərbaycan hökumətləri üçün ümumi əsas üzrə Zaqafqaziya Komissarlığı tərəfindən pul (bon) buraxılmasında iştirak etməyi qərara alıb, Dağıstan Cümhuriyyətinin bu işdə iştirak etməsinə müavinət [köməklik] göstərilməsini xahiş edir.

**Vilsonun Almaniya haqqında bəyanatı**
Vilson Konqre iclasında bəyan etmişdir ki, Almaniyanın iqtisad və ərzaqca əhvalının yüngülləşdirilməsindən ötrü hər cür tədbirlər ittixaz edəcəkdir [görəcəkdir].
- Mütarikə mövcibincə [atəşkəsə əsasən] gəmilərin Qara dənizdə azad seyr etmələrini təmindən ötrü Sevastopolda olan Alman Komandanlığı ilə İstanbulda olan İngiltərə Komandanlığı arasında müzakirat [danışıqlar] davam edir.
- Rumıniyanın Almaniyaya müharibə elan etməsi doğru olmuşdur. Bu müharibə elanı Almaniyanın Rumıniyada olan ləvazimat və mühimmati-əsgəriyyəsini [hərbi ləvazimatını] zəbt etmək qəsdindən ibarətdir.
- Petroqraddan xəbər verirlər ki, Kronştadtda olan ikinci donanma matrosları üsyan bayrağı qaldıraraq zabitləri və burjuaları həbsdən azad etməyə çalışmışlardır. Latış nişançı [atıcı] bölüyü əsgərləri ilə atışdıqdan sonra matroslar geri çəkilmişlərdir.
- Ümumrusiya İcra Komitəsi, Şuralar İctimasının [Sovetlər Qurultayının] arzusuna görə Almaniyada Əmələ və Saldat Vəkilləri Şurası [Fəhlə və Əsgər Deputatları Soveti] Hökuməti üçün mübarizə edən füqərayi-kasibə [proletariat] ixtiyarına hər biri 25 vaqondan ibarət olmaq üzrə iki qatar taxıl göndərilməsini əmr etmişdir. Bu taxıl göndərildikdən sonra Ümumrusiya Mərkəzi İcra Komitəsi Almaniyada mübarizədə bulunan fəhlə və saldatlara müavinətdən [yardımdan] ötrü xüsusi bir "fond" vücuda gətirilməsini qərara almışdır.
- Rotterdamda böyük nümayişlər vaqe olmuşdur. Bu nümayişlərdə Hollandiya saldatları iştirak etmişlərdir. Nümayişçilər sosialist nəğmələri oxumaqla küçələri gəzmişlərdir. Komendantın yaşadığı evin şüşələri sındırılmışdır.

## İSTANBUL SƏYAHƏTİ HAQQINDA RƏSULZADƏ MƏHƏMMƏD ƏMİN BƏYİN KONFERANSI

*(keçən nömrədən mabəd)*

Şimdi Türkiyədə bu gün ərz etdiyim yeni cərəyanlar başlamış. Bu cərəyanı, ictimaiyyatda da müşahidə etmək olar. Bunun təsiri bilxassə [xüsusilə] həyati-nisvana [qadınların həyatına], onların tərəqqisinə icrayi-nüfuz etmişdir [təsir göstərmişdir].

Qadınlar da erkəklər kimi həyati-ictimaiyyənin [ictimai həyatın] hər növünə iştirak edirlər. Parça toxuyan, ayaqqabı, tüfəng və digər əslihə [silah] əməliyyatxanalarında (masterskoyla-rında) qadınlar da çalışır. Mənsucat [toxuma, trikotaj] fabrikasında yeddi min əmələdən [fəhlədən] beş mini qadındır. Texnik əməliyyatxanalarda dəxi çox ağır olmayan işlər qadınların və qız çocuqlarınındır.

Mərkəzi-islamı – İstanbul – səyahət etdiyim sırada fabrika və zavodlarla bir çox digər müəssisələri gəzdik. Fabrika qapısından içəri girmək istədikdə, qara bir yaylıqla başını bağlamış, qara əlbisə geymiş bir məmurə bizi salamladı. İçəri girdikdə hər yerdə erkəklərlə bərabər məmurələr [qadın işçilər] də gözə çarpırdı. Hətta on iki yaşlı qızlar da dəstgahlarda [dəzgahlarda] işləyirdi. Böyük bir şöbəyə müdirlə bərabər girdiyimiz əsnasında bizim qafqaziyalı olduğumuzu duyar-duymaz hamı bir ağızdan Qafqaz marşını oxudular.

Bu saat İstanbulda nerəyə baxarsaq, məmurlar miyanında [arasında] əksəri qadınlardır. Posta-teleqraf və digər hökumət müəssisə və idarələrinin həpsində məmurələr çalışır. Bilümum [bütün; ümumiyyətlə] müdirlər də qadınların erkəklərdən daha qeyrətli [çalışqan] olduğunu və onların kəndi işlərində göstərdiyi səbatı [dözümlülüyü] etiraf edir. Kəndiləri tərbiyə sahibi, oxur-bilər, içlərində ədibə və şairə vardır.

Bu gün Türkiyədə bir çox dul qadınlar olduğu kimi, saysız yetim çocuqlar da küçələrdə mövcuddur. Bunları tərbiyə etmək üçün dövlət tərəfindən darüləcəzələr [kimsəsizlər evi] təsis edilmiş ki, burada öksüzlər [yetimlər] pənah bulurlar. Altıncı Sultan Məhəmməd xanın qılınc quşanması zamanı, böylə çocuqlar[ın] təmiz pak əlbisələrdə kəndi müəllimələri ilə gəlib səf bağlamaları gözəl bir mənzərə təşkil edirdi.

Qadınlar özləri cəmiyyətlər təsis edir. Özlərinə məxsus qəzetələri var. Ali məktəblərdə oxumaq üçün onlara haqq verilmişdir.

Türkiyə qadınları miyanında [arasında] bir çox alimə və fazilələr [fəzilət sahibləri] vardır ki, Hökumət bunların fikri-tənqidinə [tənqidi fikrinə], təsəvvürat [düşüncələrinə; görüşlərinə], mülahizələrinə hörmət edir. Məsələn, təkcə Türkiyədə deyil, bütün Avropada kəsbi-şöhrət etmiş [tanınmış] Xalidə Ədibə xanım əsərləri, məqalələri böyük bir diqqətlə oxunur. Hangi bir firqə hökumət başına keçərsə, xanım əfəndinin fikrindən istifadə edir. Hökuməti və onun əhval və hərəkətini tənqid edən digərlərini sürgün etdikləri halda, ona toxunmaz. Tələt paşa kabinəsi dövründə hökuməti tənqidə qalxışan yeganə şəxs var idisə, o da Xalidə Ədibə xanım oldu.

Qadınlar cəmiyyətlərində ədəbi mütaliələr olduğu kimi, onların konfransları da olur. Leksiyaları ilə həyati-ictimaiyyədə böyük təcəlliyata səbəb olmuşlardır.

İştə, görürsünüz ki, bir tərəfdən türklərdə elm, fənn, ədəbiyyat, ümumiyyətlə xalq malı olmaq istəyir, xalqa yaxlaşır. Digər tərəfdən də xalqın anaları, onun mürəbbiyələri [tərbiyəçiləri] olan qadınları tərəqqi və təali [yüksəliş] yolunda yüksək addımlar atır. Artıq yarımçılıq həyat ortadan qaldırılır.

Ədəbiyyatda olduğu kimi, tərzi-memaridən də (arxitektura) əski Bizans, italyan, ərəb ilə qərb-Avropa üsulları əvəzində yeni türk üsulu imarətlər bina edilir. Bunların həpsi islamın mərkəzi İstanbulda yeni bir həyatın üfüqlərdən ərzi-didar etməsini [simasını göstərməsini] göstərməyirmi?

Bizi hər yerdə hüsntəvəccöhlə qəbul etdilər. Yeni cərəyanı təmsil edən "Türk Ocağı" türk məmləkətlərinin harasından kim gələrsə, bu "ocaq" onu qəbul edəcəyi mühəqqəqdir [şübhəsizdir]. Biz də burada bir qardaşlıq hissi gördük. İstanbulun bütün məhfil [dairə; cəmiyyət], amil [işçi; məmur], siyasiyyunlarının [siyasətçilərinin] həpsini Azərbaycan məsələsində həmfikir gördük. Bu məsələ üstündə, bilxassə Bakı məsələsində, İstanbul mətbuatının almanlara qarşı etirazlarını, Azərbaycan istiqlaliyyətini müdafiə etməsini xatirdən çıxarmaq imkan xaricindədir. Heç bu günədək bu məsələdə olduğu kimi türkləri müttəhid [birgə] və müttəfiq görməmişdim.

Mütarikə [atəşkəs] haqqında bəyani-əfkar etmək [fikir bildirmək] və onun və xüsusən bu gün ümumun fikrini təsxir [zəbt] edən məsələlərin haqqında tədqiqatda bulunmaqdan iləri tənəffüs elan edilir.

*(sonu var)*

## TÜRKİYƏDƏ QADINLIQ MƏSƏLƏSİ
## "Feminizm"

**2**

*(keçən nömrədən mabəd)*

Dövri-Həmididə [Sultan Əbdülhəmid dövründə] Türkiyə ufaq bir kişvər [ölkə] deyildi. Olduqca böyük ölkənin sahibi-yeganəsi [yeganə sahibi], qahiri-qadiri [hər şeyə gücü çatan və istədiyini qəhr edə bilən] münhəsirən [ancaq, sadəcə] yədi-Həmidiyə [Əbdülhəmidin əlinə] və əvənəganına [yaxın dəstəsinə] mövdu idi [tapşırılmışdı]. Zira idareyi-mülükanələrində [padişahın idarəsində] bulunan bunca ünsüri-islam içərisində müxtəlif millətlər var idi. Rumeli və Anadolu türklərinin həyati-ailədən [ailə həyatından] bəhərdar olduqlarını [nəsib aldıqlarını; fayda gördüklərini] və ya olmadıqlarını iləridə tədqiq edəcəyiz. Yalnız ufaq bir təmasla keçəlim:

Rumeli türklərində həyati-ailə bir az təməddün etmiş [mədəniləşmiş], mürəffəh [rifaha çatmış] ədd [hesab] olunur. Avropanın Asiya ilə güzərgahı və ticarət, sənaye nöqteyi-nəzərindən əhəmiyyəti haiz [daşıyan] və digər ölkələrə rəqabət edər bir mühitdir. Səlanikdə yaşayan, Ədirnədə yaşayan qadınlarla İstanbulda yaşayan qadınların fitrəti başqa-başqadır. Ədirnə İstanbula qərib [yaxın] bulunmaqla bərabər, İstanbul ləhcəsini almış, Balkan müharibeyi-fəlakəti [fəlakətli Balkan müharibəsi] üzərinə şimaldan gələn mühacir ailələrinin lisanları da qarışmış, füqəra və kasıb qismi çoxalmış, zəngin və kübar qismi azalmışdır. Zəngin olanlar isə ailələrinə olduqca tərbiyə verə biləcək qüdrətə malikdirlər. Əsasən məmurin [məmurlar; dövlət xidmətində işləyənlər] və mütəfənnin [oxumuş, təhsilli] olanlar və bilxassə Avropaya gedən xətti-hədidin [dəmir-yolunun] məbəri [keçidi] üzərində olduğundan əcnəbi sükkanı da [sakinləri də] bu mədəniyyətin asari-ənvarından [nurunun təsirindən] azadə qalmamışlardır. Fəqət Səlanik bütün Rumelinin ticarət məqərri [mərkəzi]... Avropa sənaye məhsulatı [məhsulları] kamilən buradan idxal edilir. Dəniz ticarəti o qədər bol olan və qayət mədəni olan şu gözəl mühit vaxtilə türklərdə ikən ailə tərbiyəsi olduqca yüksək idi. Həman İstanbul xanımları dərəcəsinə natiqəpərdaz [nitq qabiliyyəti yüksək], milli səxavətkar xanımlar törəmişdir.

Vəlhasil, Səlanik mühiti, qadınlıq irfanını yüksəltdi və bu üzdən mehri-hürriyyət [azadlıq günəşi] Səlanikdən tövlid etmişdir [doğmuşdur]. Hərəkət Ordusunun qərargahı burası idi. Hər nə qədər hərəkəti-fikriyyənin [ideoloji cərəyanların] məbdeyi-mahəsəli [çıxış nöqtəsi] İstanbul isə də, İstanbul sükkanı [sakinləri] kamilən babi-hökumətin pərvərdələri olduğundan [hökumət qapısında bəsləndiyindən], Səlanik hərəkəti-fikriyyəsini İstanbula mürəccəh [üstün] görürəm...

Rumeli faciəsini mütəaqib [faciəsinin ardınca] İstanbula hicrət edən kübar familiyalar, Səlanikdəki aldığı feyzi İstanbulda ikmal etdilər [tamamladılar; kamilləşdirdilər].

Bütün məmaliki-Osmaniyyəyə gedən məmurlar İstanbuldan çıxır. Sətvəti-hökuməti [hökumətin qüdrətini] təmsil və iraə edənlərin [göstərənlərin] əksərisi paytaxti-müəzzəmeyi-Osmaniyyədən [Osmanlının əzəmətli paytaxtından] nəş'ət etdiyinə [meydana gəldiyinə], maarif nurunun mərkəzi bulunduğuna, bu nöqteyi-nəzərdən də Səlanik qadınlıq irfanını bəl' etmişdir [özündə ehtiva etmişdir].

İstanbulda təsəttürə [örtünməyə; İslami qaydalara uyğun örtünməyə] ədəmi-riayət [riayət edilməməsi] məsələsi dövri-Həmididə olduqca iləriləmiş ədd [hesab] olunur. Vaxta ki [o vaxt ki], dövri-məşrutiyyət [konstitusiyalı monarxiya dövrü] ənvari-əhraranəsi [azadlıq nurları] ilə tülu etdiyi [doğduğu] sıra-larda qadınlıq aləmində başqa bir feyz, böyük bir təhəvvülat [dəyişiklik] hiss olundu. Bunlara müariz [etiraz edən], mütəariz [ziddinə gedən] çox çıxdı. Məşayixi-islamiyyənin [İslam şeyxlərinin] vəsayası [vəsiyyətləri], əmr-namələri[nin] bir-birini mütəaqib [bir-birinin ardınca] süduru [verilməsi; meydana çıxması] qadınlıq israri-fikrisinə [qadınlıq ideolojisinin israrına] bir ədil-lədir [dəlildir]. Binaileyh [ona görə] qadınlıq fikri bir xurşidi-dirəxşan [parlaq günəş] kimi İstanbuldan mühitinə sərpildi və nəşvünüma buldu [genişləndi; yayıldı; inkişaf etdi] və bulur da deməkdir.

Deməknolar ki, Rumelidə yeganə Səlanik qadınlarında bir hərəkət, bir cərəyan var imiş. Başqa mühitə ətf ediləcək nəzərlərdə hərəkəti-fikriyyə [ideoloji hərəkət, fəaliyyət] əsərini İstanbul civarına [ətrafına] yaxın vilayətlərdə görünür. Fəqət bunlarda da o qədər bariz bir surətdə təcəlli edəmməmişdir. Fərzən [tutaq ki], Anadolunun Bursa, İzmir və həvalisi [ətrafı] türk məmurin familiyaları [məmur ailələri] ilə əğniya [varlı, dövlətli] qisimlərinə münhəsir [məxsus olaraq] qalır. Anadoluda qadınlıq ruhu mədəni bir siyaqda [tərzdə] yüksəlməmiş, fəqət ənənəvi bir şəkildə təbarüz etmişdir [özünü göstərmişdir; meydana çıxmışdır]. Dövri-istibdadın [istibdad dövrünün] bəqiyyeyi-əfkarı [fikirlərinin qalıqları] əlyövm [bu gün] Anadoluda cari qaydalardan məduddur [sayılır]. Anadoluda maarif hənuz yerləşmədiyi cəhətlə, maarifsiz mühit, bittəb [təbii olaraq] cahil bir fikir, aqilə və dana [müdrik] bir qadın yetişdirməz.

*Məhəmməd Hənəfi*

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 21 noyabr (Cümə axşamı günü) tarixli 46-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Anadoluda nəşrə əhəmiyyət verilməmiş, əski üsul və qaydadan qətiyyən ayrılmamışlardır. Düyünlər, cünbüşlər [əyləncələr] kamilən əski şəkildə davam etməkdədir. Yalnız şəhərlilərlə köylülər arasında fərq vardır. Məişətə aid cəhətiylə köylülər şəhərlilərdən fəzlə [artıq; əlavə] fəaliyyətdə bulunurlar.

Anadoluda həyati-ictimaiyyə sönmüşdür. Köylülər ümumiyyətlə ziraətlə [əkinçiliklə] məşğul görünür. Anadolu sərapa [başdan-ayağa] ziraət məmləkətidir. Halbuki şəhərlərdə hər bir sənətin istinad mərkəzi, asari-fəaliyyəti-istehsalatı [istehsalat fəaliyyətinin izləri, təsirləri] bazari-ticarətdə [ticarət bazarında] mər’idir [özünü göstərməkdədir]. Demək ki, şəhər həyati-ictimaiyyədə köylülərdən sənaye nöqteyi-nəzərindən fərqlidir. Bir də ünas [qız] məktəblərinin bulunması... Maarifcə sönük, donuq bir işıq haleyi-matəm [matəm haləsi] içrə şu hərbi-hazır [hazırkı müharibə] içərisində sənələrcə yə’sə [matəmə] bürünmüşdür. Sürən hərb məsaibi [fəlakətləri] köylüləri böyük intibahata [intibahlara; oyanışlara] məzhər [nail] etmişdir. Əvvəlcə qadınlar yalnız xanə [ev] işiylə məşğul ikən, bu gün köylülər erkək işlərini pək əla görürlər.

Əvvəlcə tarlaya gedən işçi fəqirə [kasıb] bir qadın hicabla [utanaraq] gedirdi. Şimdi isə məişəti uğrunda can ataraq gedir. Həyati-məişət ailənin ruhu məsabəsində [yerində] olduğuna, yaşamağa haqq qazanacaq millətlər çalışmağa məhkumdur. Çalışmayan bir millət yaşamaz. Bu qanuni-iqtisad və həyatiyyəyə [iqtisadiyyatın və həyatın bu qanununa] təb’ən [tabe olaraq] köylülərdə fəaliyyəti-iqtisadiyyə [iqtisadi fəaliyyət] şu hərb sənələrində qat-qat artmışdır. Anadolunun hər bucağında bəslənən əsgər yavrucuqlarını birər-birər cəbheyi-hərbə sövq edilərkən, validələri [anaları] və həmşirələri [bacıları] əlindəki, ovcundakı nüqudunu [pulunu] təslim edərək göndərir. Köydə yap-yalnız qalınca nə yapacaq? Yalnız başına çalışmağa, qarnını doyurmağa məcburdur. İştə qadınlar, erkək həyati-fəaliyyətə atıldığı dəqiqədən etibarən o əski əfkari-mənhusədən [nəhs, uğursuz fikirlərdən] qismən azad bulunmuş olurlar.

* * *

İstanbul afaqında [üfüqlərində] nəcmi-hürriyyət [hürriyyət ulduzu] göründükcə, qadınlıq aləmi bir eydi-məsərrətə [şadlıq bayramına] qərq oldu. Yeni-yeni fikirlər meydani-münaqişəyə buraxıldı. İstanbul mətbuatı adəta bir mücadileyi-qələm [qələm mübarizəsi] şəklini aldı. Hürriyyətin ilk kəlamı qadınlıq etilası [ucalması] oldu. Qadınlığın e’lası [ucalması; şan-şöhrət qazanması] demək idi. Əli qələm tutan əshabi-mühərririn [yazıçılar] qadınlıq etilası, nicatı, səadəti uğuruna pək çox yazılar yazdılar. Etiraz tufanları mətbuat sütunlarında yüksəldikcə yüksəldi, binaileyh [ona görə], böyük sədəmələr [toqquşmalar] yapdı. Nəhayət, şurişi-əzim nətayici [böyük çaxnaşmalar nəticəsində] qadınlıq layiqi bulunduğu kamalata doğru çıxmağa başladı. “Qadın ruhu”, qadın hissiyyatı, qadın əfkarı [fikirləri], qadın əş’arı [şeirləri], vəlhasil qadınlığa aid məsaili-ictimaiyyəyə [ictimai məsələlərə, ictimai problemlərə] geniş bir yol açıldı.

Bir çox cəridələr [qəzetlər] nəşr olundu, risalələr [elmi əsərlər] kamilən bu hissiyyati-aliyyə [ali duyğular] peşində qoşurlar. Buna binaən [əsasən] Türkiyədə qadınlıq cərəyanlarına başlıca saiq [sövqedici güc, səbəb] hürriyyəti-şəxsiyyə [şəxsiyyət azadlığı] oldu. Dövlətin idari təşkilatı sərbəst lisana malikiyyətdən [yiyələndiyindən], qadınlıq ruhunda həssasiyyət oyandırdı.

Tarixçeyi-maziyyənin [keçmiş tarixlərin, keçmiş dövrlərin] topladığı bəqiyyeyi-rüzgarı [küləklərin qalıqları] qadınlıq əzhari-rayihədarına [ətirli çiçəklərinə] əsdikcə, o novbahari-növnəhali-aləm [yer üzünün təzə fidanlarının ilkbaharı] oldu.

Qadınlıq şeiriyyət deməkdir. O şeiriyyətin timsali-müşəxxəsi [konkret, canlı timsalı] qadınlıqdır. Qadın ömri-baharisini [həyatının baharını] idrak etdikcə, üzərindəki şitayi-kabusdan [kabus qışından] qurtulduqca, feyzli səmərlər [meyvələr] iqtitaf etməyə [dərməyə, toplamağa] başladı.

İstanbulda qadın şeiri adəta moda idi. Qadın düşüncəsini başqa tələqqi edirlər [qiymətləndirirlər]. Qadın şeirlərinin həssasiyyəti, ciddən incəliyi olduqca mövqeyi-ehtiram qazandı.

Mətbuat sütunlarında Salimə Sərvət Seyfi xanım, Nigar binti-Osman kimi buna mümasil [bənzər] ədibələr, şairələr yeni-yeni törəməyə başladı. O zamanlar Tofiq Fikrətin, Əbdülhaq Hamidin, Cənab Şəhabəddinin, Süleyman Nazifin, şüərayi-bənamın [tanınmış şairlərin] asarını [əsərlərini] təbcil edərək [tərifləyərək; ucaldaraq] yazılan əsərlər nə qədər qiymətdar idi. Bu ədiblər, kamilən qadınlığa nüfuz [təsir] etmiş və yazdıqları əsərlər kamilən qadınlıq ruhunu təsvir və təşhir etmişdilər [təsvir etmiş və açıb göstərmişdi]. Tofiq Fikrətin xanım qızlar haqqında yazdığı şeirlər o zamanın modası hökmüncə adəta bir xəzinə və giranbaha [dəyərli] ədd [hesab] edildi.

Tofiq Fikrətin “Sis” parçasından daha ziyadə qadın şeirlərini tənsib edirlərdi [seçirdilər; üstünlük verirdilər].

Bu hərb sənələri içərisində qadınlıq getdikcə yüksəldi, hətta müvərrixi-şəhir [məşhur tarixçi] Əhməd Rəfiq bəy kimi dahiyi-zəmanə [zəmanə dahisi] belə tarixi müsabiqələrə [təcrübələrə] girişdi. Vaqifanə, alimanə, müdəqqi-qanə [bilikli, elmli, diqqətli bir tədqiqatçıya yaraşan tərzdə] yazılan Lalə dövründə İbrahim paşanın qadınlara atdığı “zəri-məhbublar”[dan] [qızıl pullardan] tut da, digər xəta və səvablarına [səhvlərinə və doğrularına] varıncaya qədər böyük-böyük fəsillər yazılmağa başlandı.

Müvərrix [tarixçi] Cövdət paşanın qızı Fatma Aliyə xanım əfəndinin müdafiəsi nə qədər alimə idi, nə qədər fazilanə bir üslubi-ədibanə ilə mətbuatda namını hörmətlə yad etdirməyə vəsilə oldu. Əlyövm [bu gün, günümüzdə] qadınlıq aləmində şöhrət bulmuş “feminizm” cərəyanlarının pişvası [rəhbəri] olmuş sərəfrazani-ədibədəndir [qadın ədiblərin qabaqcıllarından, öndə gələnlərindən biridir].

“Feminizm” məsələsini ruhu və qəvamizi [anlaşılmaz cəhətləri] ilə meydani-ələniyyətə vəz [aşkar etmək; aydınlaşdırmaq], əfkari-ümumiyyə [ictimai rəy] üzərində dolaşan kabusu rəf etmək [aradan qaldırmaq] üçün müzlim hissiyyatdan [qaranlıq duyğulardan] nurani nicata [işıqlı qurtuluşa] isal edici [çatdıran] qüvvətli əllər – müqtədir mühərrirlər, mühərrirələr çıxdı. Bidayəti-məşrutiyyətdən [konstitusiyalı monarxiya dövrünün əvvəlindən] bu hərb sənələrinə varıncaya qədər nəşr edilən risalələri alar oxu[ya]r isək “feminizm” bəhsinin nə qədər əhəmiyyətlə tələqqi edildiyini [ələ alındığını] anlarız.

Bidayəti-məşrutiyyətdə “Qələm”, “Hələ”, “Şəhab”, “Sərvəti-fünun” məcmuələri çıxırdı. “Piano”, “Düşünüyorum” qəzetələrini çıxaran Əhməd Nəbil, Bəha Tofiq əfəndilər bilaxirə [daha sonra] “Zəka” qəzetəsini çıxarmağa başladılar. Sonradan “Şəhbal”, “Donanma”, “Rəsimli kitab”da qadın-lıq haqqında pək vaqifanə fikirlər mündəricdir [dərc edilmişdir]. Son zamanlarda Camal Nadir bəyin çıxardığı “Rübab” qəzetəsi də qadınlıq haqqında olduqca rəğbətə məzhər [nail] oldu. Son zamanlarda “Qadınlar dünyası” namında bir risalə çıxırdı. Qadınlıq hüququnu mühafizə və müdafiə məqsədini istihdaf edirdi [hədəfləyirdi] və buna şəriki-qələm olanlar [qələm ortağı olanlar, eyni mövzuda yazanlar] çoxdu. Bilxassə [xüsusilə] türk mətbuatında olduqca mövqe qazanan Cəlal Nuri bəy qadınlarımız haqqında böyük bir əsər yazdı, “feminizm” bəhsini eyi qurcaladı. “Türk yurdu”, “İctihad”, “Yeni məcmuə” – bu qəzetlərdə hekayəçilik surətində qadınlıq ruhu sönük gedir. Milliyyət prinsipləri, din üzrə münaqişələr açılır... Bu qəzetələrin kaffəsi [hamısı] qadınlıq ruhunu yüksək görmək üçün səhifələrini açıq bulundurmaqdadırlar.

Vəlhasil, qadınlığa çalışan erkəklərdən Tofiq Fikrət şeirləri ilə qadın ruhunu ifham edir [anladır, başa salır]. Onun ruhundakı incəlikləri bizə ilhamati-füsunkari [füsunkar ilhamlar] tərzində bir hissi-bədii verir. Cəlal Nurinin, Bəha Tofiq və rüfəqasının [yoldaşlarının] yazdığı feminizmə aid əsərlərini oxuduğum vaxt ruhumda qeyri-ixtiyari “qadınlıq himayəsini”, fikrimdə “qadınlıq istixlasını” [qadınlığın xilasını] düşünürəm. Qadınlarımızı bir taqım müxəllədati-güzideyi-irfanü-kamalat [irfan və kamalın ən seçilmiş, ölməz əsərləri], ədibanə, vaqifanə məqalat [sözlər] “feminizm ruhunu” təsvir etdi. Şairlər, ədiblər, əmrazi-ictimaiyyə [sosial naxoşluqlar, ictimai qüsurlar] mütəxəssislərinin yazdıqları yazılardan başqa, ən ziyadə romançılıqda şöhrət bulan, milli romanlarıyla rəğbət və hörmət qazanan gənc mühərrirlərdən romantik Hüseyn Rəhmi bəy vardır ki, həyati-ictimaiyyəmizi [ictimai həyatımızı] təşhir etməkdədir [açıb göstərməkdədir].

*Əbdüllətif*

*Böyük simalar:*

### ƏBDÜLHAQ HAMİD

Fələklər, kəhkəşanlar, asumanlar
Onun cövlangəhi-fikrü-xəyalı...
Mələklər, nurlar, huri-cinanlar
Onun həp həmdəmi-hissü-məalı...
Üfüqlər qarşısında səcdə eylər,
Səmalar devrilər də ərzi-dunə.
Bütün asarı ilə – dahiyanə –
Qoca türk ellərinə inci sərpər.
O, türkün ən böyük, şanlı dühası,
Onunla nurlanar Şərqin səması.
O bir mucid ki, hissü-şe’rlərdən
Yaratdı iştə bir bürci-mütəntən.
Fikirlərdə dərinliklər oyatdı,
Dərinliklərdə yüksəklik yaratdı.
Həman şe’rində ülviyyət gülümsər,
Münəvvər şe’ri Hamid, pək münəvvər...

*Mütəllib oğlu Abid Alp*

### AZƏRBAYCAN MİLLİ ŞURASINDA

- Dünən gündüz saat 12-yə təyin edilmiş olan Milli Şura iclası axşam saat 7-yə təyin edilmişdir.

- Azərbaycan Heyəti-Vükəla rəisi [Nazirlər Kabinetinin sədri] Fətəli xan Xoyski, dünən Müttəfiq qoşunları komandanı general Tomsonla görüşmüşdür.

- Azərbaycan Hökuməti təşkil edilməsi layihəsi Azərbaycan Milli Şurasına daxil edilmişdir.

### GÜRCÜSTANDA

- Tiflisdən xəbər verirlər ki, Tiflisdə olan alman əsgərləri arasında Saldat Vəkilləri Şurası [Əsgər Deputatları Soveti] təşkil edilmişdir. Vəkillər Şurası alman ərkanında [qərargahında] iclaslar yapmaqdadır. Məzkur [adı çəkilən] şura Tiflis Əmələ və Saldat Vəkilləri Şurası [Fəhlə və Əsgər Deputatları Soveti] ilə münasibata girişmişdir.

- Tiflisdə olan alman heyətinin məlumat bürosu xəbər vermişdir ki, Almaniya ilə əqd edilən [imzalanan] mütarikə şəraiti [atəşkəsin şərtləri] bir qədər yüngülləşdirilmişdir. Təzə şəraitin təfsilatı məlum deyildirsə də, ümdə maddələri bunlardır:

1. Qərb cəbhəsinin təxliyə müddəti uzadılmışdır.
2. Alman əsgərləri hələ şərqdə qalacaqlardır.
3. Alman sahilinin ablukası (blokadası) əvvəlkindən az bir şiddətlə vaqe olacaqdır.

- Alman zabitləri komissiyası Gürcüstanda olan alman əsgərlərinin dəniz təriqi [yolu] ilə əzimət etmələri [hərəkət etmələri] və Ukrayna təriqi ilə keçib Polşaya getmələri haqqında müzakirədə bulunmaqdan ötrü noyabrın birində Potidən Sevastopola azim olmuşlardır [yola düşmüşlərdir].

- Tiflisdə olan alman heyəti-mürəxxəsəsi [nümayəndəliyi] təzə Hökumət binagüzarlıqlarını [təzə Hökumətin sərəncamlarını] almışdır. Bu əmrlərin birincisində Almaniya imperiyasının Qafqaziyada olan heyəti bundan belə sadəcə bir surətdə alman heyəti təsmiyyə ediləcəkdir [adlandırılacaqdır].

- Çxenkeli, Müttəfiq dövlətlərin Gürcüstan istiqlaliyyətinə nə münasibətdə olduqlarına bələd olmaq üçün Berlindən çıxıb Bern şəhərinə gəlmişdir.

### HİNDİSTAN MUXTARİYYƏTİ

Milanda müntəşir [nəşr olunan] “Korryere della Sera” qəzetəsindən Hindistan Hökumətinin məşruti [konstitusiyalı] bir idarə halına ifrağı [çevrilməsi] haqqında Hindistan nazirinin raporunda möhtəvi [yer alan] təkliflər birinci dərəcədə əhəmiyyəti haiz [daşıyan] bir vəq’eyi-tarixiyyə [tarixi hadisə] təşkil etməkdədir. Zira cəmiyyəti-bəşəriyyənin [insan cəmiyyətinin, bəşəriyyətin] kəmiyyət etibarı ilə xümsünü [beşdə birini] təmsil edən bir millətə İngiltərənin bilixtiyar [könüllü olaraq] böylə bir imtiyaz bəxş etməsi pək cəsuranə bir hərəkətdir.

Hindistana idxal edilmək istənilən məşruti islahatdan [konstitusiya islahatından] əsl məqsəd əhalinin tərbiyeyi-fikriyyə və elmiyyəsini [fikri və elmi tərbiyəsini] e’la [ucaldaraq] və ikmal edərək [kamilləşdirərək] orada məsul bir idarə təsis və əhalini o şəkli-idarəyə doğru sövq və isal etməkdir [çatdırmaqdır].

Əksəriyyəti-xalqın [xalqın əksəriyyətinin] cəhaləti, müxtəlif irqlər arasında mövcud olan dini, ictimai təzad və təfavütlər və təbii olaraq təhəddüs edən [meydana çıxan] ənənəvi xüsumətlər [düşmənçiliklər] qarşısında böylə bir işi başa çıxarmaq filhəqiqə [doğrudan da] müəzzəm [əzəmətli] və müşkül bir məsələdir. Bununla bərabər, Hindistanın vəziyyəti-hazirəsi [hazırkı vəziyyəti] böylə bir təqlib [dəyişiklik] və inqilabın icrasını zəruri qıldığı halda, İngiltərə iləridə muxtariyyətə doğru vüqu bulacağı məlhuz olan [təsəvvürə gətirilən] hər təşəbbüsün şimdidən önünü almaq istəyir.

Hər əyalətin kəndinə məxsus bir valisi ilə bir də hökuməti-məhəlliyyəsi [yerli hakimiyyəti] olacaqdır. Hökuməti-məzkurə [adı çəkilən hökumət] iki şöbəyə münqəsim [ayrılmış] bulunacaq. Bunlardan birinci şöbə; valisi və biri ingilis, digəri hindli olan iki əzadan [üzvdən] mürəkkəb [ibarət] bir məclisi-icraiyyədən [icraedici məclisdən] mürəkkəb olacaq, digəri isə valinin təhti-idarəsində [idarəsi altında] qüvveyi-təşri’yə [şəriət məhkəməsi] əzası [üzvləri] miyanından [arasından] müntəxəb [seçilmiş] bir qaç nazirdən ibarət olacaqdır. Böyləliklə yavaş-yavaş əzasının sülüsanı [üçdə ikisi] əhalinin arayi-ümumiyyəsi [ümumi səsləri] ilə müntəxəb bir məclisi-təşri’yə [şəriət məclisi; məhkəmə məclisi] indində [nəzdində] əfal və hərəkatından [əməllərindən və hərəkətlərindən] məsul nəzarət məqamları ehdas edilmiş [yaradılmış] olacaqdır.

Yeni tənzim olunan proje, Hindistan nazirləri tərəfindən tədqiq və həll edilə biləcək olan mali və ədli [ədliyyə məsələlərinə məxsus] və tərbiyəvi məsailin [məsələlərin] cədavilini [cədvəllərini] yavaş-yavaş tövsi etmək [genişləndirmək] tərəfini tərvic edir [tərəfinə rəvac verir, onu inkişaf etdirir].

Hind həyati-siyasiyyəsinin [siyasi həyatının] ən əsaslı qüsurlarından biri əhali tərəfindən müntəxəb mümməssillərin [seçilmiş nümayəndələrin] yalnız təndiq və təfsir etmək vəzifəsi ilə mükəlləf olub, məsuliyyət və səlahiyyətdən tamamilə bəri [azad] bulmuş olmasıdır. Proje biləks [əksinə] məbusan [millət vəkilləri, millət nümayəndələri] miyanında [arasında] müntəxəb hökumət əzasının məclis indində məsul olması kimi bir əsasi-cədid [yeni bir qayda] vəz etdirmək [meydana qoymaq] istəyir.

Bundan maəda [başqa], hal-hazırda Hindistan nazirinin doğrudan-doğruya [birbaşa] təhti-hökm və idarəsində [hökmü və idarəsi altında] olan məclisi-təşri’yənin yerinə, biri hökumət tərəfindən müntəxəb və Şurayi-Dövlət mahiyyətini haiz [Dövlət Şurası mahiyyəti daşıyan], digəri isə əhali əzasının əksəriyyəti və məclisi-təşri’yə namı altında iki məclis iqamə edilmək [meydana qoyulmaq, yaradılmaq] istənilir ki, bu sayədə Hindistan muxtariyyəti-idarə yolunu pək çabuq tutacaq.

### CƏNUBİ AFRİKA İSTİQLALİYYƏTİ

Cənubi Afrikada nəşr olunan “De folksstexm” qəzetəsi Cənubi Afrikada yaşayan bur qövmündən ötrü istiqlaliyyət hüququna nail olmaq arzusu ilə cümhuriyyət hərəkatına mülhəq olmuşdur [qoşulmuşdur]. Qəzetə deyir ki:

“Biz ciddi surətdə izhar edib, bütün Cənubi Afrikanın istiqlaliyyətini gözləyirik. Bunun da axırda feilən icraya qoyulacağı şübhəsizdir. Biz daha da iləri hərəkət edib izhar ediriz ki, cənubi afrikalılardan bir nəfər tapılmaz ki, bizim bu fikrimizə şərik olmasın.”

### BAKI XƏBƏRLƏRİ

**İcbari qərardad**

Bakı şəhərində olan Müttəfiq qoşun komandanı general Tomson böylə bir icbari qərardad nəşr etmişdir:

1 - 1918 sənəsi noyabrın 17-si gündüz saat 12-dən Bakı şəhəri idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi rejim] altında (vayenni palajeni) elan edilir. Mən və mənim tərəfimdən Müttəfiq hökumətlər namından təyin edilən məmurlar bu işə mübaşir [icraçı] olacaqlardır.

2 - İdareyi-örfiyyeyi-əsgəriyyə zamanında mən Bakı şəhərinin əsgəri general-qubernatoru olacağam.

3 - Polkovnik Kokerell Bakı şəhərində Müttəfiq dövlət polisiyyəsinin komissarı təyin edilir.

4 - Bakı Şəhər İdarəsi və qeyri ictimai idarələr öz fəaliyyətlərini davam etdirməlidirlər.

5 - İdareyi-örfiyyə qanun və qaydaları bu yaxın zamanda əlavə olaraq elan ediləcəkdir. Bundan belə də lazımı surətdə xəbər veriləcəkdir. Yuxarıda göstərilən qanunlardan hansı birisini xələldar etməkdə [pozmaqda] müttəhim olanlar mənim tərəfimdən təyin ediləcək məmurlar və ya mənim lazım bildiyim tədbirlər vasitəsilə ağır cəzaya giriftar olacaqlardır.

*Bakı şəhərinin*
*Müttəfiq qoşunları komandanı general-mayor V. M. Tomson*

- Bakı qarnizonu ilə Bakı donanması Petrovska varid olduqdan [çatdıqdan] sonra bütün bu qüvvələr polkovnik Biçeraxov tərəfindən təzədən təşkil edilmişdir. Əsgəri dəstələrdən bir hissəsi buraxılıb, bir hissəsi ixtisar edilmişdir. Donanma həmçinin təzədən təşkil edilmişdir. Sentrokaspi əməliyyat hissəsinə müdaxilə etməkdən kənar edilib, ancaq xozyaystvenni işlər [təsərrüfat işləri] onun əlində qalmışdır. Mərkəzi Komitə ilə bərabər, gəmi komitələri də komanda etmək-dən kənar edilib, bütün ixtiyar gəmi komandanlarına verilmişdir. Voskresenski Baş Komandan nəzdində əsgəri bəhri işlər [hərbi donanma işləri] üçün baş vəkil təyin edilmişdir. Bəhriyyə ərkanı naçalniki [Donanma qərargahının rəisi] polkovnik Novikov və Bəhriyyə qüvvələri komandanı leytenant Takişvili təyin edilmişlərdir.

- Bir-iki gündür ki, şəhərin bir çox çörəkçi dükanlarında çörək bişirilməyir. Çörək bişirən dükanlar qarşısında yenə də “quyruqlar” əmələ gəlməyə başlamışdır. Bununla bərabər çörəyin qiyməti artıb, dörd manat yarıma və daha da yuxarı satılmağa başlamışdır.

- İki gündən bəri bilaaram [aramsız] yağmaqda olan yağış şəhər küçələrini xarab etməklə böyük xəsarəti mövcib olmuşdur [xəsarət vermişdir]. Bir çox küçə səkilərini yağış yuyub aparmışdır.

- General Denikin tərəfindən rəsmi sifarişatla [tapşırıqlarla] Bakıya vəkil gəlmişdir.

- Məşhur camaat xadimlərindən professor Qolovin Bakıya varid olmuşdur [gəlmişdir].

- Məşhur siyasi və camaat xadimlərindən Malyantoviçin Tiflisdən Bakıya gələcəyi gözlənir. Siyasət xadimləri dəstəsi tərəfindən Malyantoviçə təcili dəvətnamə göndərilmişdir.

- Mərkəzi Ev Komitəsinin sədri Leontyeviç general Tomson tərəfindən dəvət edilib, Mərkəzi Ev Komitəsinin gələcək işləri haqqında müsahibədə bulunmuşdur.

- Məhəlli [yerli] qəzetələrin yazdığına görə, dünən sabiq Senrtokaspi, İcra Komitəsi üzvləri, siyasi təşkilat, kooperativ və qeyri nümayəndələr iştirakıyla demokratik şurası vaqe olacaqmış. Bundan əvvəl vaqe olmuş şurada bolşeviklərin və kadetlərin dəvət edilməsi məsələsi qaldırılmış, bolşeviklərin dəvəti məsələsi rədd edilib, ikinci məsələ üstündə ixtilafi-ara [fikir ayrılığı] vücuda gəlmişdir. Zənn edildiyinə görə, kadetlər dəvət ediləcəklərdir. Çünki onlar Ufa Hökumətində iştirak edirlər.

- “Kaspi” qəzetəsinin yazdığına görə, Petrovskda təşkil edilmiş olan “Kaspi Hökuməti” təzə Rusiya Hökuməti ilə münasibət çətin olduğundan vücuda gəlmişdir. Təzə “Kaspi Hökuməti” oradan düsturüləməllər [təlimatlar] alıb və o düsturüləməllər sisteminċə hərəkət etməkdədir. Məzkur [adı çəkilən] hökumətdə təbəddülat [dəyişikliklər] olduğuna görə, hökumətin heyətinin kimlərdən ibarət olduğu dürüst məlum olmamışdır.

### AZƏRBAYCAN DƏMİRYOLUNDA

- Azərbaycan dəmiryol hərəkəti naçalniki stasyon naçalniklərinə xəbər vermişdir ki, Petrovsk xəttində olan stasyonlardan ərzaq yükləri gətirmək ancaq şəhadətnamə ilə Ərzaq Nəzarəti nümayəndələrinə vagüzar edilir [tapşırılır].

- Azərbaycan dəmiryolları naçalniklərinin binagüzarlığına [sərəncamına] görə, Azərbaycan dəmiryolları dairəsində naloj-platyoj [yüklər üçün ödənişin çatdırılma zamanı həyata keçirilməsini nəzərdə tutan sistem] ilə yüklər qəbul ediləcəkdir.


**O. A. Salmanın**
**Diş kabinəsi və süni diş müalicəxanası**

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.

Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

*253*

**Həkim Arşak Ayrapetoviç Akopyans**

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).

*256*

**Berlin Darülfünununun həkimi**
**L. Melkumyans**

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına “606” və “916” dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

*255*

**Doktor Krinski**

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovı caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

*263*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Doktor Ağahüseyn Kazımov**

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

*244*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Diş həkimi Melçarski**

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

*210*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216*

**Doktor Kamilə xanım İsmayılov**

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

*235*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, “Jorj” əksxanası. Telefon nömrə 54-44.

*232*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Телеф. 36-91.

*236*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. “Azərbaycan” qəzetə idarəsinin yanında.

*237*

**Mama-feldşer M. K. Markoviç**

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

*240*



**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Əmr nömrə 15***

“14 təşrini-sani 1334”: Burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 14 noyabr 1918-ci ilə uyğundur.

***Azərbaycan Cümhuriyyətinin Ümuri-Xeyriyyə Nəzarətindən***

“15 təşrini-sani 334”: Burada il, rumi təqvimlə verilmişdir (1334-cü il); miladi təqvimlə 15 noyabr 1918-ci ilə uyğundur.

“Təşrini-saninin 1-indən Ümuri-Xeyriyyə Nəzarətinin baş mürəxxəsliyi və ona aid bütün şöbələri təsviyə edilir.”: Əmrin mət-ni qəzetdə əskik getmişdir. Belə olmalıdır: “Təşrini-saninin 1-indən Ümuri-Xeyriyyə Nəzarətinin qaçqınların işi üzrə baş mürəxxəsliyi və ona aid bütün şöbələri təsviyə edilir.”

***Teleqraf xəbərləri***

“Əhali kraliçanı təbrik etmişdir.”: Burada söhbət 1890-1948-ci illərdə Hollandiya kraliçası olan Vilhelminadan gedir.

“…gündəlik hava müxabiratı...”: Burada söhbət sərnişinlərin hava yoluyla daşınmasından gedir.

***Mərkəzi Şura Hökumətinin məlumatı xəbərləri***

“Şura Hökuməti Mərkəzi Komitəsi Məlumat Bürosunun xəbərləri” kimi başa düşülməlidir.

“Ukraynada olan alman qoşunları arasında bir çox şuralar təşkil edilmişdir.”: Burada söhbət, “Əsgər deputatları sovetlərindən” gedir.

“Odessada bir qitə şurası, bir übur edən əsgər şurası vardır.”: Burada söhbət, biri Odessadakı daimi qarnizon üçün və digəri Odessadan keçib getməkdə olan hərbi hissələr üçün iki ayrı şura təsis edilməsindən gedir.

“Qara Ataman alayı”: Burada söhbət Leyb-Qvardiya Ataman Alayından gedir. Bu alayın əsgərləri qara, hündür başlıq qoyur, qara çəkmə geyirdilər, patrondaş və kəmərləri də qara idi.

“Alman komandanlığı inqilab xüsusundakı xəbərləri...”: Burada söhbət Almaniyada 1918-ci ilin noyabr ayında başlayan inqilabdan (Noyabr inqilabı) gedir.

“Lakin Almaniya [və] Avstriyadan övdət edən əsgəri əsirlərin...”: Burada söhbət Almaniya və Avstriyadan Rusiyaya qayıdan rus hərbi əsirlərindən gedir.

***Almaniya inqilabı***

“Bitərəf Sosial-Demokrat Firqəsi”: Almaniya Müstəqil Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

“…sosializmə və siyasətə mütabiq [uyğun] tələblər...”: “sosial və siyasi tələblər” kimi başa düşülməlidir.

“Xalq Tərəqqipərvəran Firqəsi”: Mütərəqqi Xalq Partiyası (Almaniya) nəzərdə tutulur.

“Milli hürfikirlər”: Milli-Liberal Partiya (Almaniya) tərəfdarları nəzərdə tutulur.

“…hökumət sosialistləri…”: Almaniya Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

***Almaniyada***

“Almaniya Hökuməti Məclisi-Müəssisan dəvət edilməsini elan etmişdir.”: Burada söhbət Veymar Təsisçilər Məclisindən gedir.

***Qəzetələrdən***

“Yaponiyanın təzə Xariciyyə naziri...”: Burada söhbət 1918-ci ilin sentyabr ayından 1923-cü ilin sentyabr ayına qədər Xarici İşlər naziri olan Utida Kosaydan gedir.

“Rumıniyanın Almaniyaya müharibə elan etməsi doğru olmuşdur.”: Bu cümlə belə başa düşülməlidir: “Rumıniyanın Almaniyaya müharibə elan etməsi xəbəri öz təsdiqini tapmışdır.”

“Ümumrusiya İcra Komitəsi”: “Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi” [ВЦИК: Всероссийский центральный исполнительный комитет] nəzərdə tutulur.

“Şuralar İctiması”: “Ümumrusiya Sovetlər Qurultayı” [Всероссийский съезд Советов] yəni “Ümumrusiya fəhlə, kəndli, əsgər və kazak deputatları Soveti Qurultayı” [Всероссийский съезд советов рабочих, крестьянских, красноармейских и казачьих депутатов] nəzərdə tutulur.

***Türkiyədə qadınlıq məsələsi***

“Rumeli faciəsini mütəaqib...”: Osmanlı imperiyasının böyük itkilərə məruz qaldığı Birinci Balkan müharibəsi (1912-1913) nəzərdə tutulur.

“Sis”: Türk şairi Tofiq Fikrətin 1902-ci ildə yazdığı, II Əbdülhəmid dövrünün İstanbuluna nifrətini ifadə etdiyi, ədəbi dairələrdə böyük əks-səda doğurmuş şeir.

“...İbrahim paşanın qadınlara atdığı zəri-məhbublar...”: “Zəri-məhbub” Osmanlı imperiyasında işlədilən qızıl pul idi. İlk dəfə 1695-1703-cü illərdə hakimiyyətdə olan II Mustafanın dövründə zərb edilmişdir. Xalq tərəfindən çox rəğbət gördüyündən “sevilən qızıl” mənasına gələn “zəri-məhbub” adıyla tanınmışdır.

“Əbdüllətif”: Bu imza Əbdüllətif Əfəndizadəyə məxsusdur.

***Əbdülhaq Hamid***

“Mələklər, nurlar, huri-cinanlar”: Qəzetdə “Mələklər, nurlar, hurü-cinanlar” kimi getmişdir.

***“Əbdülhaq Hamid” şeiri üçün lüğət:***

cövlangəhi-fikrü-xəyal: fikrin və xəyalın gəzib-dolaşdığı yer
huri-cinan: cənnət huriləri
həmdəmi-hissü-məal: hislərin və düşüncələrin həmdəmi
ərzi-dun: alçaq torpaq
asar: əsərlər
mucid: icad edən, yaradan
hissü-şe’r: duyğu və şeir
bürci-mütəntən: dəbdəbəli bürc
münəvvər: nurlu; işıqlı

***Hindistan muxtariyyəti***

səh. 406. “...Hindistan nazirinin raporunda...”: Söhbət 1917-1922-ci illərdə Britaniyanın Hindistan İşləri naziri olan Edvin Semuel Monteqyodan gedir.

***O. A. Salmanın…***

Bu elan qəzetdə yarımıq çıxmışdır.